**4-cü Beynəlxalq Minatəmizləmə Konfransının Yekun Bəyanatı**

“Şəhərlərin Bərpası üçün Humanitar Minatəmizləmə: Təhlükəsiz Yaşayış Məskənləri üçün Mükəmməllik Standartlarının Müəyyənləşdirilməsi”

2–3 sentyabr 2026-cı il, Bakı, Azərbaycan

Biz, 2-3 sentyabr 2026-cı il tarixlərində Azərbaycanın Bakı şəhərində keçirilən 4-cü Beynəlxalq Minatəmizləmə Konfransının iştirakçıları olaraq, minalardan təsirlənmiş ərazilərdə şəhərlərin bərpası, təhlükəsiz qayıdış, dayanıqlı əhali və davamlı inkişaf üçün humanitar minatəmizləmənin rolu barədə bir araya gəldik və müzakirələr apardıq.

Bu baxımdan, biz

Uşaqlar, qadınlar və digər qeyri-döyüşçülər də daxil olmaqla, mülki şəxslərin ölümünə, yaralanmasına və travma almasına səbəb olan minaların və müharibənin partlayıcı qalıqlarının dağıdıcı və ayrı-seçki qoymayan təsiri ilə bağlı dərin narahatlıq ifadə edərək;

Mina və partlayıcı sursatlarla çirklənmənin təhlükəsiz qayıdış, yenidənqurma, şəhərlərin bərpası, infrastrukturun inkişafı, kənd təsərrüfatı, dolanışıq vasitələri və daha geniş sosial-iqtisadi tərəqqi üçün ciddi maneə olaraq qaldığını tanıyaraq;

Münaqişədən təsirlənmiş şəhərlərin, qəsəbələrin və kəndlərin bərpası, eləcə də təhlükəsiz, davamlı və dayanıqlı yaşayış məntəqələrinin yaradılması üçün humanitar minatəmizləmənin vacib şərt olduğunu qəbul edərək;

Təhlükəsiz torpaqların köçkün əhalinin geri qayıtması, mənzil və ictimai infrastrukturun yenidən qurulması, yolların, məktəblərin, xəstəxanaların və zəruri xidmətlərin yenidən açılması və sosial və iqtisadi həyatın dirçəldilməsi üçün təməl olduğunu vurğulayaraq;

Minaların, kasetli sursatların və müharibənin digər partlayıcı qalıqlarının istifadəsini tənzimləyən və ya qadağan edən mövcud beynəlxalq hüquqi sənədlərin prinsiplərini və dəyərlərini bölüşməklə yanaşı, hamını bu sənədlərə rəsmi şəkildə riayət etmək üçün addımlar atmağa təşviq edərək;

Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 30 iyun 2017-ci il tarixli 2365 (2017) saylı qətnaməsini və minatəmizləmə fəaliyyəti ilə bağlı əvvəlki bütün qətnamələrini xatırladaraq;

Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının 5 dekabr 2025-ci il tarixli A/RES/80/74 saylı qətnaməsini və minatəmizləmə fəaliyyətinə yardımla bağlı əvvəlki bütün qətnamələrini də xatırladaraq;

BMT-nin İnsan Hüquqları Şurasının 4 aprel 2025-ci il tarixində qəbul edilmiş 58/22 saylı “Piyadalar əleyhinə minaların bütün insan hüquqlarından tam istifadəyə təsiri” adlı qətnaməsini alqışlayaraq;

BMT Baş katibinin 28 iyul 2025-ci il tarixində dərc edilmiş və şəhər çirklənməsinin uzunmüddətli risklərini əks etdirən A/80/272 nömrəli “Minatəmizləmə fəaliyyətinə yardım” adlı hesabatını nəzərə alaraq;

Birləşmiş Millətlər Təşkilatının Minatəmizləmə fəaliyyəti üzrə Strategiyasını və Birləşmiş Millətlər Təşkilatının Minatəmizləməsində Qurbanlara Yardım üzrə Siyasətini nəzərə alaraq;

Təhlükəsiz, effektiv, hesabatlı və keyfiyyəti zəmanətli olan mina əməliyyatları üçün vacib bir çərçivə kimi Beynəlxalq Minatəmizləmə fəaliyyəti üzrə Standartları nəzərə alaraq;

Minatəmizləmə fəaliyyətinin milli bərpa, yenidənqurma, şəhərsalma, infrastrukturun inkişafı və dayanıqlı inkişaf siyasətlərinə inteqrasiyasının vacibliyini vurğulayaraq;

Humanitar minatəmizləmə fəaliyyətinin münaqişədən sonrakı ərazilərdə sülh quruculuğu, barışıq və bərpa işlərinə imkan verən bir vasitə kimi qəbul edərək;

Humanitar minatəmizləmənin təhlükəsizliyinin, səmərəliliyinin və effektivliyinin artırılmasında texnologiyanın, innovasiyanın, süni intellekt, coğrafi informasiya sistemlərinin, mexaniki aktivlərin, heyvan aşkarlama sistemlərinin və digər qabaqcıl yanaşmaların artan rolunu qəbul edərək;

Mina fəaliyyətinin beynəlxalq sülh gündəliyinin bir hissəsinə çevrilməsinin vacibliyini vurğulayaraq;

Minalar və müharibənin partlayıcı qalıqlarının mülki sakinlər və minalardan təsirlənmiş əhali üçün ciddi və davamlı humanitar, sosial və iqtisadi nəticələri ilə bağlı narahatlığını ifadə edərək;

Mina qurbanlarına tibbi yardım, reabilitasiya, psixososial dəstək, sosial müdafiə və sosial-iqtisadi reinteqrasiya da daxil olmaqla hərtərəfli yardımın təmin edilməsinin vacibliyini vurğulayaraq;

2022, 2023 və 2024-cü illərdə Azərbaycanda keçirilmiş əvvəlki Beynəlxalq Mina Təmizləmə Konfranslarını və onların yekun sənədlərini təqdir edərək;

1. Minalardan təsirlənmiş ölkələrdə humanitar minatəmizləmə fəaliyyətinin şəhərlərin bərpası, yenidən qurulması, təhlükəsiz qayıdış və dayanıqlı inkişaf proseslərinə tam inteqrasiyasına çağırırıq;
2. Təhlükəsiz yaşayış məntəqələrinin bərpası, dağıdılmış şəhər və kəndlərin yenidən qurulması və köçkün əhalinin öz doğma yerlərinə qayıtması üçün minaların təmizlənməsinin ilk və ən vacib şərtlərdən biri hesab edilməli olduğunu vurğulayırıq;
3. Təsirə məruz qalmış dövlətləri, Birləşmiş Millətlər Təşkilatının müvafiq agentliklərini, regional təşkilatları, beynəlxalq tərəfdaşları, donorları, qeyri-hökumət təşkilatlarını və digər maraqlı tərəfləri minatəmizləmə fəaliyyəti üzrə orqanları, şəhərsalma mütəxəssisləri, infrastruktur agentlikləri, yerli administrasiyalar, tikinti şirkətləri, ətraf mühit mütəxəssisləri və təsirə məruz qalan əhali arasında koordinasiyanı gücləndirməyə təşviq edirik;
4. Humanitar minatəmizləmə əməliyyatlarının təhlükəsiz qayıdışı, infrastrukturun inkişafını, iqtisadi bərpanı və vacib dövlət xidmətlərinin bərpasını daha effektiv şəkildə

sürətləndirməsi üçün donor dəstəyinin bərpa və yenidənqurma prioritetləri ilə daha yaxşı uyğunlaşdırılmasına ehtiyac olduğunu vurğulayırıq;

5. Bütün yeni vasitə və metodların milli kontekstlərə, sahə reallıqlarına, təhlükəsizlik tələblərinə və beynəlxalq standartlara uyğunlaşdırılmasını təmin etməklə yanaşı, innovativ texnologiyaların və müasir əməliyyat yanaşmalarının daha geniş tətbiqini təşviq edirik;
6. Mina və müharibənin partlayıcı qalıqlarının yaratdığı gələcək hadisələrin qarşısını almaq üçün hərtərəfli tədbirlərə, o cümlədən partlayıcı sursat riski ilə bağlı maarifləndirmənin genişləndirilməsinə, əhali məlumatlılığının artırılmasına və geri qayıdan əhali, tikinti işçiləri, fermerlər və digər yüksək risk qrupları üçün hədəflənmiş profilaktik tədbirlərə təcili ehtiyac olduğunu vurğulayırıq;
7. Təcili tibbi yardım, uzunmüddətli reabilitasiya, protezləşdirmə, psixoloji dəstək, inklüziv məşğulluq imkanları və cəmiyyətə tam inteqrasiya daxil olmaqla, mina qurbanlarına güclü və insan mərkəzli dəstək göstərilməsinə çağırırıq;
8. Minatəmizləmə fəaliyyətinin insan təhlükəsizliyinə, yoxsulluğun azaldılmasına, təhlükəsiz məskunlaşmalara, infrastrukturun inkişafına, ərzaq təhlükəsizliyinə və davamlı dolanışıqlara birbaşa töhfə verdiyini qəbul edərək, 2030-cu il Dayanıqlı İnkişaf Gündəliyinin həyata keçirilməsinə minatəmizləmə fəaliyyətinin daxil edilməsinin vacibliyini vurğulayırıq;
9. Azərbaycanın humanitar minatəmizləmənin genişmiqyaslı yenidənqurma, infrastrukturun inkişafı və keçmiş məcburi köçkünlərin geri qayıtması prosesinə inteqrasiyası təcrübəsini tanıyır və əldə edilən dərsləri minadan zərər çəkmiş digər ölkələrlə bölüşmək imkanını alqışlayırıq;
10. Mina çirklənməsinin böyük humanitar, sosial və iqtisadi nəticələrinin aradan qaldırılmasında Azərbaycanla, eləcə də minadan zərər çəkmiş bütün ölkələrlə həmrəylik ifadə edirik və beynəlxalq ictimaiyyəti humanitar minatəmizləmə səylərini daha da dəstəkləməyə çağırırıq;
11. Bu Konfransın keçirilməsində göstərdikləri səxavətli dəstəyə, mükəmməl təşkilatçılığa və qonaqpərvərliyə görə Azərbaycan Respublikası Hökumətinə, Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyinə və Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyinə minnətdarlığımızı bildiririk;
12. Humanitar mina fəaliyyətinin təhlükəsiz qayıdış, dayanıqlı icmaların formalaşdırılması, şəhərlərin davamlı bərpası və uzunmüddətli sülh üçün təməl kimi təşviq edilməsinə dair ortaq öhdəliyimizi bir daha təsdiq edirik.